

**Nəcəf Müseyibli**
*Tarix elmləri doktoru, professor*

# AZƏRBAYCANDA İBTİDAİ İCMA DÖVRÜ VƏ İLK İYERARXİYALI CƏMİYYƏTLƏRİN YARANMASI

## 1.İnsanın yaranması (Antropogenez). Azərbaycanın ən qədim sakinləri

İnsanın yaranması Dördüncü geoloji dövrdə baş vermişdir. Bu dövr həm də Antropogen (yunanca *anthropos* – insan və *genesis* – yaranma) adlanır. Dördüncü dövr iki mərhələyə – pleystosen (buzlaşma dövrü) və holosen (buzların əriməsi və buzlaşmadan sonrakı dövr) mərhələlərinə bölünür. İlk insanların yaranmasına gətirib çıxaran proseslər milyon illərlə davam etmişdir. İnsanabənzər meymunlarla ilk insanlar arasındakı keçid mərhələsinin primatları olan *Avstralopiteklərin* (cənub meymunu) yaşadığı dövr 4 milyondan 2 milyon il əvvələ qədərki dövrlə tarixləndirilir. Onların qalıqları Şərqi və Cənubi Afrikada aşkar edilmişdir. Avstralopitekləri fərqləndirən əsas cəhət iki ayaqları üzərində hərəkət etmələri idi. Bununla yanaşı Avstralopiteklər meymunlara xas olan bir sıra xüsusiyyətləri də (çox zaman ağaclarda yaşamaq və s.) saxlamışdılar. *Homo* (insan) nəslinin ən qədim növü *Homo habilis* (bacarıqlı insan) Avstralopiteklə insan arasında keçid mərhələsini təşkil etmişdir. Onlar əmək alətləri hazırlamağı öyrəndiklərinə görə elmdə bacarıqlı insanlar adlandırılmışlar. *Homo habilisin* ən qədim izləri Şərqi Afrikada və Asiyanın müxtəlif ərazilərində aşkar edilib, 2,5 milyon il əvvələ aiddir. İbtidai icma tarixi məhz bu dövrdən başlamış və ilk dövlətlərin meydana çıxmasına qədər davam etmişdir.

Antropogenezdə növbəti mərhələ təxminən 1,8 milyon il əvvəl meydana çıxmış *arxantroplar* – yəni "ən qədim insanlardır". Bu mərhələyə pitekantrop (meymun-insan) və sinantrop (Çin insanı) tipli insanlar edilir. Hazırda antropologiya elmində bu insanları ümumi adla *Homo erektus*, yəni düz qamətli insanlar adlandırılır.

Hominidlərin növbəti qrupu *paleontroplar* – “qədim insanlar” olmuşdur. Bu mərhələnin insanlarını elmdə *neandertallar* (qalıqları ilk dəfə Almaniya ərazisində Neandertal vadisində aşkar edilib) adlandırlır. Neandertallar təxminən 500 min il əvvəl meydana çıxmış, 150 min il əvvəl onların formalaşması başa çatmışdır. Bu növ insanların son nümayəndələri 35-40 min il əvvəllərə – müasir insan növünün, yəni *Homo sapiensin* yaranmasına qədər yaşamışdır.

Dördüncü geoloji dövrdə Azərbaycan ərazisindəki əlverişli təbi şərait burada Homo erektusların (arxantropların) və sonra neandertalların (paleontropların) məskunlaşmasına səbəb olmuşdur. Arxeoloji bölgüdə bu Paleolit dövrünün alt və orta mərhələlərini – 2 milyon ilə yaxın bir dövrü əhatə edir.

Paleolit dövrünün alt mərhələsinin ibtidai insan düşərgələri Azıx mağarasında (III, V-X təbəqələr)[1], Ceyrançöldə Qara düz, Sarı burun, Qazax rayonu ərazisində Kəmərli, Çaxmaqlı, Köçəskər, Qayalı, Şişquzey və digər açıq tipli düşərgələrdə[2], Mingəçevir yaxınlığındakı açıq tipli Qaraca düşərgəsində[3], Qax rayonunda Xorqaya və Zaqatala rayonunda Cimcimax mağaralarında[4] tədqiq edilmişdir. Bundan əlavə, Ağstafa, Şəmkir, Qəbələ rayonları ərazisində bu dövrə aid tapıntı yerlərində daş alətlər aşkar edilmişdir. Bütün bunlar ibtidai icma cəmiyyətinin ən qədim mərhələlərində Azərbaycan ərazisində insanların intensiv məskunlaşdığını göstərir. Alt Paleolit dövründə *Homo erektus* tipli arxanrtoplar yaşamış, bu dövrün sonlarında isə *neandertallar* – paleoantroplar yayılmağa başlamışdır və sonrakı Orta Paleolit dövründə insanın fiziki tipini məhz neandertallar müəyyən etmişdir.

Orta Paleolit dövrü Azərbaycanda 100-120 min il əvvəl başlamış 35-40 min il əvvələ qədər davam etmişdir. Neandertalların yaşadığı bu dövr ibtidai cəmiyyətin daha inkişaf etmiş mərhələsi idi. Orta Paleolit dövründə ibtidai insanlar iqlimdən asılı olaraq həm mağaralarda, həm də açıq düşərgələrdə yaşayırdılar. Azıx (III təbəqə) və ondan 3 km qərbdə yerləşən Tağlar, Qazax rayonunda Daşsalahlı və Damcılı, Lerik rayonunda

---

[1] Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 2010

[2] Мансуров М.М. Нижний палеолит западного Азербайджана. Баку, 2020

[3] Зейналов А.А. Последнее убежище неандертальца. Баку, 2016

[4] Mənsurov M.M. Paleolit arxeoloji ekspedisiyası Qax, Balakən, Zaqatala dəstəsinin çöl tədqiqatının nəticələri // Azərbaycanda arxeoloji tədqiqatlar – 2012. Bakı, 2013, s. 34-40.

Buzeyir, Şərur rayonunda Qazma, Urmiya yaxınlığında Tamtama mağaralarında, Qazax və Ağstafa rayonları ərazisində (Qədir dərə, Çaxmaxlı, Köçəsgər və s.) açıq tipli düşərgələrdə neandertalların məskənləri tədqiq edilmişdir.

## 2.İbtidai insan sürüsü – praicma dövrü

Arxantropların və paleontropların yaşadıqları dövr ibtidai insan sürüsü və ya *praicma* dövrüdür. Azərbaycan ərazisində praicma dövrünün ibtidai insanlarının fiziki təkamülü barədə yeganə informasiya mənbəyi Azıx mağarasının V təbəqəsində (orta Aşel dövrü) aşkar edilmiş qadına aid çənə sümüyü fraqmentidir. Arxeoloji və antropoloji tədqiqatlar göstərmişdir ki, 350-400 min il əvvələ aid bu tapıntı təkamülün *Homo erektus*dan neandertala keçid mərhələsində (preneandertal) yaşamış insana məxsusdur. Şərti olaraq bu tapıntı elmdə "azıxantrop" – Azıx adamı adlandırılmışdır[5].

İbtidai icma cəmiyyətinin ilk pilləsində – ibtidai insan sürüsü və ya praicma dövründə insanlar qidalanmaq, təbiətlə mübarizədə sağ qalmaq üçün qruplar halında birgə yaşamağa məhkum idilər. Bu dövrdə Azərbaycan ərazisində insanlar cəmiyyətin ən qədim forması olan kiçik qruplar (və ya sürülər) halında yaşayırdılar. Onların fəaliyyəti kollektiv əməyə əsaslanırdı. İnsanların məşğuliyyəti ovçuluq və yığıcılıqdan ibarət idi.

Praicmanın birinci mərhələsi Alt Paleolit dövrünü əhatə edir. Bu dövrdə Azərbaycanın qədim sakinləri çay daşlarından, çaxmaqdaşından, andezit, bazalt və s. cinsli daşlardan qaşov, çapacaq, itiuclu, bıçaq və s. əmək alətləri düzəldirdilər. Azıx mağarasında ibtidai insanların ardıcıl olaraq bir məkanda, bir ocaq ətrafında toplanması, birgə ov etmələri və alətlər hazırlamaları və s. kollektiv fəaliyyət onların demək olar ki, sosial təşkilatlanmasını şərtləndirmişdir.

Əmək prosesində ibtidai insanların bacarıqları və vərdişləri getdikcə zənginləşir, ətraf mühitlə təmasda daha çox üstünlüklər qazanır, onların fəaliyyət dairəsi genişlənirdi. Daşdan əmək alətləri daha da təkmilləşirdi. Bütün bunlarla yanaşı olaraq insanların ovladıqları heyvanların sayı və növü də çoxalırdı. Əsas qida mənbəyi olan kiçik heyvanlarla yanaşı ibtidai öküz, mağara ayısı, nəhəng və nəcib maral, Cənub fili kimi iri heyvanlar da ovlanırdı. Onların ovlanması üçün qovaraq hündür sıldırımlardan aşağı

[5] Гусейнов М.М. Древний палеолит Азербайджана., с. 132-133

uçurmaq və yaxud, üstü budaqlarla örtülü böyük quyulara salmaq üsullarından istifadə edirdilər. Şübhəsiz bu işi müəyyən insan qrupları kollektiv şəkildə icra edirdilər. Bu isə öz növbəsində praicma üzvlərini daha sıx birləşməyə, ümumi iş üçün güclərini birləşdirməyə sövq edirdi.

Azıx mağarasının sakinləri ovçuluqla birgə, yığıcılıqla da məşğul olurdular. Əsasən meyvə və yeməli bitkilər toplayırdılar. Onların yığıcılıq fəaliyyəti bununla bitmirdi. Ətraf ərazilərdən maral buynuzları, ağac budaqları, əhəng daşı lövhələri və digər daşlar toplanaraq tədarük edilir, sonra  mağaraya gətirilirdi. Bunlardan əmək alətləri və ov silahları hazırlanır, yaşayış yerinin möhkəmləndirilməsi üçün istifadə edilirdi. Bütün bunlar ovçu və yığıcı təsərrüfatın nəticəsi idi və ibtidai insanlar hər iki işlə, eyni zamanda məşğul olurdular. Belə geniş ovçuluq və yığıcılıq fəaliyyəti ibtidai insanların, ola bilsin ki, ayrı-ayrı insan qruplarının, ovçuların birləşməsini tələb edirdi. Məhz belə mütəşəkkillik ovçular arasında qarşılıqlı anlaşma yaradır, onların toplumunu daha da möhkəmlədirdi. Bütün bunlar öz növbəsində həmin ibtidai insanların dünyagörüşünə, mənəvi aləminə də təsir edirdi[6].

Azərbaycan ərazisində praicma dövrü insanları ən qədim zamanlardan təbii yanan oddan istifadə etmişlər. Təxminən 700 min il əvvəl süni yolla od əldə etməyi öyrənmiş və onu uzun müddət saxlamağı bacarmışlar. Bunu Azıx mağarasında aparılan arxeoloji qazıntılar nəticəsində həmin dövrə aid aşkar edilmiş ocaq qalıqları sübut edir.

Oddan istifadə ibtidai insanların həyatını asanlaşdırır, bir sıra çətinliklərini aradan qaldırırdı. İbtidai insanlar odun köməkliyi ilə vəhşi heyvanlardan qorunur, isinir və ovladıqları heyvanların ətini bişirirdilər. İnsanların odu ram etməsi, ümumiyyətlə bəşəriyyət tarixində çox mühüm bir hadisədir. Od ibtidai insanların həyatının keyfiyyətini əsaslı şəkildə yüksəltmişdir. Azıx sakinləri də oddan gündəlik həyatlarında müntəzəm şəkildə istifadə etmişlər. İri ocaq Azıx sakinlərinin bir yerə toplaşmasına səbəb olmuşdur.  Burada onlar birgə ovladıqları heyvanların ətini bişirmiş, növbəti ov günü üçün hazırlıq görmüşlər. Onlar ocaqların ətrafında qövsvari və dairəvi şəkildə əhəngdaşlarından və maral buynuzları ilə primitiv sığınacaqlar da qururdular. Azıxda aşkar edilmiş həm ocaq yerləri, həm də tikili qalığı dünyada ən qədim belə tapıntılar

[6] Yenə orada, c. 142

sırasındadır. Bu ocaq yerləri və ibtidai tikili qalığı praicma dövrü insanlarının təfəkkürünün, nitqinin inkişaf səviyyəsindən xəbər verir.

Praicmanın ikinci mərhələsi Orta Paleolit dövrünü əhatə edir. Bu dövr ibtidai cəmiyyətin tarixində keyfiyyətcə yeni, daha yüksək mərhələdir. Bu mərhələdə daş alətləri hazırlama texnologiyası daha da təkmilləşir. Əvvəlki dövrlərdə olduğu kimi müxtəlif cinsli daşlardan istifadə ilə yanaşı, vulkanik şüşədən – obsidiandan əmək alətlərinin hazırlanması ənənəsi yayılır. Bu dövrdə ağacın sonuna bərkidilən daşdan nizə ucluğu funksiyalı ov silahları meydana çıxır ki, bu da öz növbəsində insanların qida ilə təmin edilməsini daha da yaxşılaşdırır.

Praicma dövründə kişi-qadın münasibətləri barədə ətraflı məlumat yoxdur. Bununla yanaşı araşdırmalar əsasında belə hesab etmək olar ki, bu münasibətlər sistemsiz, qarışıq halda baş vermişdir. Bu halda uşağın yalnız anası məlum olurdu.

Azərbaycan ərazisində praicma toplumunun mənəvi aləmi barədə də geniş olmasa da, müəyyən informasiyalar mövcud deyil. Azıxantropların ən primitiv, ibtidai inamları ovçuluqla və heyvan kultu ilə bağlı olmuşdur. Onlar daha çox mağara ayılarını, nəhəng və nəcib maralları ovlayırdılar. Maralların buynuzları kəllə smümyü ilə birgə saxlanmış və ocağın ətrafındakı primitiv tikili konstruksiyasında istifadə edilmişdir[7]. Bununla bağlı çox güman ki, müəyyən rituallar icra edilmişdir, çünki maralın kəllə sümüyünün buynuzları ilə birlikdə məqsədli şəkildə saxlanması təsadüfi deyildir. O dövr insanlarının inamları ovçuluq və ov obyekti olan heyvanlara, yəni insanların başlıca həyat təminatı vasitələri ilə bağlı olmuşdur.

Bununla əlaqədar Azıx mağarasının V təbəqəsində, mağaranın divarını təşkil edən qayadakı "taxca"da (təbii yarıqda) məqsədyönlü qoyulmuş ayıların kəllə sümükləri maraq doğurur. Azıxantroplar ayıları ovladıqdan sonra onların ətindən və dərisindən qida və geyim, örtük məqsədi ilə istifadə etmişlər. Bəzilərinin kəllə sümüklərini isə əvvəl bir qədər odda yandırmış, sonra isə kəlləni dəridən və ətdən tam təmizləmişlər. Bundan sonra mərasim məqsədi ilə onları qayadakı təbii yarıqda, qaranlıq bir xəlvətxanada yerləşdirmişlər. Burada mağara ayısı və qonur ayıya məxsus üç kəllə sümüyü və üst çənə fraqmentləri qoyulmuşdur. Bütün bu sümüklər biri böyük, biri cavan,

[7] Yenə orada, c. 133-142

ikisi körpə olmaqla dörd ayıya aid olmuşdur. Bundan əlavə, bir körpə ayının kəllə sümüyünün üstündə məqsədli şəkildə 8 xətt çəkilmişdir. Onlardan altısı biri-birinə yanaşı çəkilmişdir. Bu vəziyyət, yəni ayı kəllələrinin qaya yarığında, gizli bir yerdə qoyulması və kəllə sümüklərindən birinin üzərində xətlərin çəkilməsi heç şübhəsiz ki, azıxantropların ibtidai inamı ilə bağlı olmuşdur[8].

### 3.Nəsli icmanın yaranması

***Nəsli icma dövrünün birinci mərhələsi.*** İki milyon ilə yaxın davam edən praicma dövründə insan nəslinin təkamülü Paleolit dövrünün son mərhələsində başa çatmış, antropogenez prosesləri yekunlaşmış və müasir insan növü yaranmışdır. Neandertallar ictimai həyat tərzinin inkişafı üçün fiziki və əqli baxımdan məhdud potensiala malik idilər. Müasir tipli insanlar isə nisbətən iri beyin tutumu, əllərin daha intensiv hərəkətliliyi, təfəkkürün və nitqin inkişafı, daha mükəmməl əmək alətləri hazırlamaq bacarıqları ilə fərqlənirdilər.

Nəsli icma dövrünün başlanması ilə əlaqədar ibtidai cəmiyyətdə cinslər arasındakı əlaqələri tənzimləyən nikah münasibətləri yaranmışdır. Kişilər və qadınlar arasında qarışıq münasibətlərin hökm sürdüyü praicma dövründən fərqli olaraq, nəsli icmada toplumun təşkilatlanması qohumluq əlaqələrinə əsaslanırdı. Toplumun ən stabil hissəsi qadınlar idi. Uşaqların qayğısını çəkmək və ev təsərrüfatında qadınların müstəsna rolu var idi. Kişi-qadın əlaqələrindəki sistemsizlik, kişinin qohumluq münasibətlərindəki qeyri-müəyyənlik törəmələrin qohumluğunun qadın, ana xətti ilə hesablanmasını şərtləndirmişdi. Buna görə də praicmanı əvəz edən yeni, nəsli icma münasibətləri ümumi mənşəyi ilə ana xəttinə, ana nəslinə (matriarxata) əsaslanan insanların kollektivindən ibarət idi. İcmalar biri-birinə qohum olan ailələri birləşdirirdi. İcmanın üzvlərinin sayı orta hesabla 25-30 nəfər civarında idi.

Erkən nəsli icma dövrünün insanları, yəni müasir insan nəslinin əcdadları – *Homo sapiens* insanlar (neoantroplar) Azərbaycan ərazisində Üst (və ya Yuxarı) Paleolit dövründə məskunlaşmağa başlamışlar. Bu dövrdə ibtidai insan sürüsü – praicma nəsli icma ilə əvəz edilmişdir. Paleolit dövrünün bu mərhələsi Azərbaycan ərazisində 35-40 min il əvvəl başlamış, e.ə. XII minillikdə başa çatmışdır. Bu dövr Xocavənddə Tağlar,

[8] Yenə orada, c. 142

Kəlbəcərdə Zar mağaralarında, Qazaxda Yataq yeri  və digər açıq düşərgələrdə tədqiq edilmişdir. Ümumiyyətlə, bu dövr abidələri Azərbaycanda zəif araşdırılmışdır. Müəyyən edilmişdir ki, Üst Paleolit dövründə insanlar daşlardan müxtəlif ucluqlar, o cümlədən ov alətləri üçün nizə tipli ucluqları, xüsusi bıçaq-qaşovlar düzəldirdilər. Kiçik alətlər olan mikrolövhələri də bu mərhələdə hazırlamağa başlamışlar. Eyni zamanda, bıçaqşəkilli lövhələr, qaşovlar, kəsərlər, deşicilər və s. tipli alətlərdən geniş istifadə edilirdi.

Üst Paleolit dövründə ovçuluq təsərrüfatı daha da təkmilləşmiş və genişlənmişdir. Ov zamanı məsafədən tətbiq edilən nizə, harpun, qarmaq tipli alətlər daha effektli idi. Bu dövrə aid abidələrdə Qafqaz maralı, ceyran, dağ keçilərinə və s. heyvanlara aid çoxsaylı sümüklərin aşkar edilməsi ovçuluğun sürətlə inkişaf etdiyinin göstəricisidir. Üst Paleolit dövrü insanları təbiətin hazır məhsullarını mənimsəməyə davam etsələr də bunu daha mükəmməl şəkildə icra edirdilər. Ovçuluğun inkişafı ilə əlaqədar olaraq kişilərlə qadınlar arasında əmək bölgüsü daha kəskin şəkil alırdı. İcmanın qida ilə təmin edilməsində kişilərin rolu daha da artırdı, qadınlar isə daha çox yığıcılıqla, “ev təsərrüfatı” ilə məşğul olurdu. Nəslin artımı, qohumluq ardıcıllığı ana xətti ilə hesablanırdı.

Azərbaycanda nəsli icma dövrünün birinci mərhələsi, eyni zamanda Mezolit (e.ə. XII minillik-VII minilliyin ortaları) və Neolit (e.ə. VII minilliyin ikinci yarısı-V minilliyin əvvəlləri) dövrlərini də əhatə etmişdir. Əlbəttə, burada Mezolit ənənələrinin müəyyən qədər davam etdiyi, ovçuluq və yığıcılığa əsaslanan Neolit dövrü nəzərdə tutulur. Belə Mezolit – Orta Daş (yunanca *mesos* – orta, *lithos* – daş) və yaxud Epipaleolit və Neolit (yunanca *“neos”* – yeni, *“litos”* – daş) abidələri Qobustanda və Qazax rayonunda Damcılıda tədqiq edilmişdir[9].

Həm Qobustan, həm də Damcılı dağlıq-qayalıq ərazidən ibarətdir. Mezolit və Neolit dövrlərində insanlar bu yerlərdə qayaaltı sığınacaqlarda məskunlaşmışdılar. Hər

---

[9] Джафарзаде И.М. Гобустан. Баку,  1973, Rüstəmov C., Muradova F. Qobustan. Kiçikdaş abidələri. Bakı,  2008, Nishiaki Y.,  Zeynalov A., Munsrov M., Guliyev F. Radiocarbon chronology of the mesolithic-neolithic sequence at Damjili cave, Azerbaijan, Southern Caucasus // Radiocarbon, Vol. 00, Nr 00, 2022, p. 1–14.

iki məkanın sakinlərinin təsərrüfatı, həyat tərzi və həyat təminatı eyni, yəni ovçuluq və yığıcılıqdan ibarət olmuşdur. İstehlak təsərrüfatına əsaslanan Qobustan və Damcılının, Neoliti istehsal təsərrüfatına əsaslanan Urmiyaətrafı, Naxçıvan, Qarabağ və Orta Kür düzənliyinin Neoliti ilə eyni dövrə aid olsa da, inkişaf baxımından onlardan xeyli geridə idi. Müvafiq olaraq Qobustanda və Damcılıda nəsli icma quruluşunun birinci mərhələsi davam etmişdir.

Mezolit dövründə ox-kaman icad edilmiş və bununla da fərdi ovçuluq üçün geniş imkanlar yaranmışdır. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş ox ucluqları bu faktı bir daha təsdiq edir. Məhz Mezolit dövründə insanlar çaxmaqdaşından və obsidiandan kiçik alətlər – mikrolitlər və onların vasitəsi ilə yığma-quraşdırma alətlər hazırlamağı öyrənmişdilər. Belə alətlərlə, əsasən, yabanı bitən dənli bitkiləri biçirdilər. Bu dövrdə ilk dəfə olaraq bəzi təsərrüfat heyvanlarının əhliləşdirilməsinə başlanmışdır. Bütün bunlar isə ilk istehsal vərdişlərinin rüşeymləri idi. Bununla belə əhalinin təsərrüfatının əsasını ovçuluq, o cümlədən balıq ovu və yığıcılıq təşkil edirdi.

Neolit dövründə insanlar ayrı-ayrı qəbilə icmaları halında qayaaltı sığınacaqlarda yaşamaqda davam edir, başlıca olaraq ovçuluqla məşğul idilər. Bir sıra iri və xırda buynuzlu heyvanların əhliləşdirilməsi ilə maldarlıq təsərrüfatı yaranmışdır. Daş alətlərin hazırlanmasında əvvəlki dövrün ənənələri davam etsə də yeni tip alətlər – dənli bitkilərin əzilib üyüdülməsi üçün sürtgəclər və dən daşları meydana çıxır. İlk dəfə olaraq bu dövrdə daş alətlərin cilalanması onların daha keyfiyyətli olmasını şərtləndirmişdir. Qobustan sakinləri bu dövrdə qayıqlar düzəldərək dənizə çıxır, balıq ovlayırdılar. Bütün bunlar tədricən istehsal təsərrüfatının yarandığını göstərirdi.

Vəfat etmiş qəbilə üzvlərini daş alətlər və bəzəklərlə birlikdə dəfn edirdilər. Bu mərhələdə ibtidai incəsənət təşəkkül tapmış və ibtidai dini təsəvvürlər genişlənmişdir. Qobustanın qayaüstü təsvirlərinin bir qismi nəsli icma insanlarının inanclarını əks etdirir. Burada ovçuluqla bağlı ovsun səhnələrinə, məhsuldarlıq simvolu olan abstrakt qadın təsvirlərinə rast gəlinir. Qədim qobustanlılar vəfat etmiş qəbilə üzvlərini bilavasitə yaşadıqları düşərgələrdə dəfn edirdilər. “Firuz” və “Kənizə” düşərgələrində tək və çoxdəfnli qəbirlər aşkar edilmişdir.

***Nəsli icma dövrünün ikinci mərhələsi.*** Bu mərhələ istehsal təsərrüfatının, əkinçiliyin və maldarlığın tam bərqərar olması ilə başlanmış, Neolit və Xalkolit dövrlərini (e.ə. VII minilliyin axırları-IV minilliyin ortaları) əhatə etmişdir. Əkinçilik və maldarlığın ovçuluqdan ayrılması ilə birinci böyük ictimai əmək bölgüsü baş vermişdir. İcma üzvlərinin sayı çoxalaraq bir neçə yüz, bəzən isə minə yaxın insanı birləşdirmişdir. İcmanın əsasını əvvəlki kimi nəsil təşkil edirdi. Bəzən bir icmada bir neçə qohum nəsil birləşirdi. İqtisadiyyat inkişaf etdikcə icmalar arasında mübadilə, eyni zamanda qohumluq əlaqələri genişlənmişdir. Qoşa nikahlı ailə münasibətləri davam edirdi, ailəyə kişi başçılıq etdiyindən nəsil kişi xətti ilə (patriarxatlıq) hesablanırdı. Təsərrüfat fəaliyyəti kollektiv əməyə əsaslanırdı və fiziki ağır işlərin icrası – ov etmək, əkinçilik və s. kişilərin öhdəsinə düşürdü. Qadınlar isə əsasən ev işləri və uşaqların qayğıları ilə məşğul olur, təsərrüfatda nisbətən yüngül işləri icra edirdilər.

Neolit dövrünün yaşayış yerləri Naxçıvanda (I Kültəpə), Gəncə-Qazax bölgəsində (Şomutəpə, Töyrətəpə, Babadərviş, Qarğalartəpəsi, Həsənsu, Çağrıtəpə, Göytəpə), Mil-Qarabağda (İlanlıtəpə, Çalağantəpə, Kamiltəpə və s.), Urmiya gölü hövzəsində (Hacı Firuz, Göytəpə, Yanıqtəpə, Dalmatəpə və s.) geniş tədqiq edilmişdir. Naxçıvan və Qarabağ abidələri “Kültəpə mədəniyyəti”ndə, orta Kür hövzəsi (Borçalı daxil olmaqla) abidələri isə “Şomutəpə mədəniyyəti”ndə birləşdirilmişdir. Bu dövrdə Azərbaycanın qədim əhalisinin Mesopotamiya, Şərqi Anadolu, mərkəzi İran mədəniyyətləri ilə əlaqələri genişlənmişdir.

Əkinçilik və maldarlıq başlıca təsərrüfat sahələri olduğundan əsaslı şəkildə oturaq həyat tərzi başlanmışdır. Bununla əlaqədar olaraq eyni məskəndə oturaq həyat əsrlərlə, bəzən min ilə qədər fasiləsiz davam edirdi. Əhali açıq sahələrdə, məhsuldar torpaqlara malik çay vadilərində məskən salmış, əvvəlcə yarımqazmalarda, sonra isə çay daşlarından, möhrədən və çiy kərpiclərdən inşa edilmiş evlərdə yaşamışdılar. Evlər az hallarda dördkünc və oval, əksər hallarda isə dairəvi planlı tikilirdi. Yaşayış məskənlərində kişinin başçılıq etdiyi qoşa nikahlı, yaşayış evlərinə və təsərrüfat tikililərinə sahib kiçik ailələr yaşayırdı. Evlərin çox sıx yerləşməsi yaşayış məskənlərində qohumluq əlaqəsi olan tayfanın yaşadığını göstərirdi. Bir neçə ailə eyni istehsal vasitələrinə sahib idilər və təsərrüfatla birgə məşğul olurdular. Əldə edilən

məhsul həmin ailələr arasında bölünürdü. Ovçuluq arxa plana keçmişdir. Belə ki, yaşayış yerlərində aşkar edilmiş heyvan sümüklərinin 90 %-dən çoxu əhliləşdirilmiş təsərrüfat heyvanlarına aiddir.

Əmək fəaliyyətində, təsərrüfatda, cəmiyyətdə üstünlük kişilərdə idi. Bu amillər, eyni zamanda bir məkanda uzun müddət oturaq həyat tərzi, ailə-nikah münasibətlərinin möhkəmlənməsi nəslin kişi xətti ilə hesablanmasının əsasını qoymuşdur. Bununla belə ideologiyada məhsuldarlıq simvolu olan qadın obrazı müəyyən yer tuturdu. Şomutəpə mədəniyyəti abidələrindən aşkar edilmiş gildən hazırlanmış qadın fiqurları məhz bu təsəvvürlərlə bağlı idi. Vəfat etmiş insanları yaşayış yerlərindən kənarda (orta Kür hövzəsində) və bilavasitə yaşayış məskənlərində evlərin döşəməsi altında və evlərarası sahələrdə (Naxçıvan, Qarabağ, Urmiyaətrafı bölgələrdə) dəfn edirdilər. Ölülər yanı üstə, bükülü vəziyyətdə, müxtəlif minerallardan hazırlanmış bəzək əşyaları ilə birgə dəfn edilir, bəzən onların yanına saxsı qablar qoyulurdu. Naxçıvanda I Kültəpədə və Cənubi Azərbaycanda Hacı Firuz yaşayış yerlərində kollektiv dəfnlərə də rast gəlinmişdir[10].

Bu dövrdə başlıca istehsal təsərrüfatı – əkinçilik və maldarlıq idi. İlk dəfə olaraq gildən saxsı qablar hazırlanması başlamışdır. Dulusçuluq, toxuculuq, daşişləmə, sümükişləmə kimi ev sənətkarlıq sahələri əsaslı şəkildə təşəkkül tapmışdır. Toplanmış taxılın üyüdülməsi üçün müxtəlif cinsli daşlardan düzəldilmiş dən daşlarından, sürtgəclərdən istifadə edilirdi. İlk dəfə olaraq daşdan hazırlanmış toxalardan yer şumlamaq üçün istifadə etməyə başlamışdılar. Bununla da toxa əkinçiliyi meydana çıxmışdı. Eyni zamanda, əkin sahələrinin şumlanması üçün sümükdən və buynuzdan hazırlanmış toxa funksiyalı alətlər tətbiq edilirdi. Çaxmaqdaşı və obsidiandan müxtəlif funksiyalı alətlər – yığma oraqların dişləri, qaşovlar, sıyırğallar, yonqarlar və s. tipli alətlər hazırlanırdı. Oraqların haşiyəsi iri heyvanın çənə sümüyündən düzəldilirdi və bu haşiyəyə oraq dişləri qətranla (bitumla) bərkidilirdi. Digər kiçik daş alətlər heyvanların dərilərinin aşılanmasında, ağacişləmə, sümükişləmə və s. əmək fəaliyyətində istifadə edilirdi. Heyvan sümüklərindən sancaq, biz, iynə və s. alətlər hazırlanırdı. İlk dəfə mis əsaslı metaldan kiçik əşyalar hazırlamağa başlanmışdır.

---

[10] Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982, с. 46-49.

Ərzaq ehtiyatının saxlanması üçün təsərrüfat quyuları qazılır və ya bu məqsədlə çiy kərpiclərlə yerüstü tikililər inşa edilirdi. Bəzən isə ərzağı, xüsusilə də taxıl ehtiyatını iri ölçülü gil qablarda saxlayırdılar. İlk əkinçilik cəmiyyətində torpaq sahələri, təsərrüfat heyvanları və əldə edilən məhsul üzərində kollektiv nəzarət mövcud idi. Ailələrin təşkil etdiyi qəbilə və tayfaları ağsaqqallar şurası idarə edirdi.

Nəsli icmanın ikinci mərhələsinin sonlarına doğru, e.ə. V-IV minillikləri əhatə etmiş Xalkolit dövründə (yunanca *xalkos* – mis, *litos* – daş) əkinçilik və maldarlıq təsərrüfatları, sənətkarlıq sahələri və bütün bunlarla əlaqədar olaraq cəmiyyətdə sosial münasibətlər daha da genişlənmişdir. Yerli icmalarla yanaşı, Şimali Mesopotamiya və Şərqi Anadoludan Azərbaycan ərazilərinə kütləvi miqrasiyalar baş vermiş, regionda yeni əhali kütlələri məskunlaşmışdır (Leylatəpə mədəniyyəti). Bu miqrasiyalar Ön Asiyada gedən sivilizasiya proseslərinin birbaşa Azərbaycana təsirini daha da gücləndirmişdi.

Azərbaycanda bu dövrə aid abidələr Gəncə-Qazax (Keçili, Rustəpəsi, I Böyük Kəsik, II Poylu və s. yaşayış yerləri, Soyuqbulaq kurqanları), Muğan (Əliköməktəpə, Polutəpə, və s.), Qarabağ (Leylatəpə, Şomulutəpə, Çinartəpə və s.), Naxçıvan (Ovçulartəpəsi, Şorsu və s.), Urmiyaətrafı (Yanıqtəpə, Dalmatəpə, Hacı Firuz, Göytəpə və s. yaşayış yerləri, Se Qirdan kurqanları) bölgələrində, Qəbələdə (Qalayeri yaşayış məskəni), Xaçmazda (Seyidli kurqanları) tədqiq edilmişdir.

Evlər çiy kərpiclərdən və möhrədən dördkünc, az hallarda isə oval planlı inşa edilirdi. Bəzi məskənlərdə bunlarla bərabər yarımqazma və yüngül yerüstü tikililərdə yaşayırdılar. Evlər biri-birinə sıx vəziyyətdə tikilirdi. Yaşayış evləri ilə yanaşı inşa edilmiş təsərrüfat məqsədli tikililərdə ərzaq ehtiyatı və mal-qara saxlanılırdı. Vəfat etmiş yaşlı insanları yaşayış məskənlərində (Əliköməktəpəsi, II Poylu və s.) və kənarda kurqanlarda (Soyuqbulaq, Seyidli, Se Qirdan kurqanları), körpə uşaqları isə saxsı qablarda dəfn edirdilər.

Əkinçilik və maldarlıq başlıca təsərrüfat sahələri idi. Maldarlıq təsərrüfatının əsasını iri və xırda buynuzlu heyvanlar təşkil edirdi. Əliköməktəpəsində atları əhliləşdirməyi bacarmışdılar: bu yaşayış yerində belə atların çoxsaylı sümükləri aşkar edilmişdir. Bu tapıntılar bütövlükdə Avrasiya məkanında atın əhliləşdirməsinə aid ən

qədim faktlardandır.

Dulusçuluq emalatxanalarının bəzən yaşayış məskənlərinin kənarında yerləşməsi bu sahənin ixtisaslaşmasını, bu işlə peşəkar sənətkarların məşğul olmasını göstərir. Gil qabların bişirilməsi üçün bir və iki yaruslu dulus kürələri qurulurdu. Leylatəpə mədəniyyəti dövründə ilk dəfə olaraq saxsı qabların hazırlanmasında ən qabaqcıl texnologiyadan – dulus çarxından istifadə edirdilər. Azərbaycanda ilk dəfə olaraq saxsı qabları üzərində dulusçuların vurduğu tanınma işarələri gil qabların hazırlanması zamanı istehsal üzərində xüsusi nəzarət sisteminin olduğunu göstərir. Daş və sümükdən alətləri də təcrübəli, bacarıqlı ustalar hazırlayırdılar. Gildən və sümükdən çoxsaylı iy başlıqlarının aşkarlanması toxuculuğun ayrıca sənətkarlıq sahəsi kimi seçildiyini sübut edir. Metallurgiya əsaslı şəkildə inkişaf edir, misin əridilməsi, ərintinin yığılması üçün metaləritmə kürələri düzəldilir, gildən butələr və qəliblər hazırlayırdılar. Bu dövrdə mərgümüş və nikel tərkibli (təbii qatışıqlı) misdən biz, muncuq kimi kiçik əşyalarla yanaşı, bıçaq və xəncər də düzəldirdilər. E.ə. V minilliyin axırlarından etibarən təkərli nəqliyyatdan istifadə etməyə başlamışdılar. Yaşayış yerlərində aşkar edilmiş gildən hazırlanmış araba təkəri modelləri bunu əyani şəkildə sübut edir.

Dini mərasimlər xüsusi tikilmiş ibadətgahlarda (Əliköməktəpəsi, Böyük Kəsik, Qalayeri) icra edilirdi. Az hallarda gildən qadın fiqurlarının hazırlanması qadın obrazının inanclarda müəyyən mövqeyi ilə bağlı idi. Bununla belə təsərrüfat fəaliyyəti ilə bağlı olaraq cəmiyyətdə kişinin mövqeyi daha da güclənmişdi. Bu dövrdən başlayaraq gildən zoomorf fiqurların hazırlanması təsərrüfatda maldarlığın intensiv inkişafı və bununla əlaqədar heyvan kultunun genişlənməsi ilə bağlı idi. Dini mərasimlər müəyyən insanlar – kahinlər tərəfindən icra edilirdi.

E.ə. IV minilliyin birinci yarısında Leylatəpə mədəniyyətinin sıx bağlı olduğu Yaxın Şərq əraziləri, yəni Şimali Mesopotamiya və Şərqi Anadolu erkən dövlətlərin yaranma ərəfəsində idi. Həmin regionlardakı bir sıra istehsal-idarəçilik ənənələrinin bir qismi Leylatəpə mədəniyyəti abidələri timsalında qədim Azərbaycan torpaqlarında da yayılmışdır. Bu mərhələdə ikinci böyük ictimai əmək bölgüsü baş vermiş, sənətkarlıq müstəqil sahəyə çevrilmişdir.

Bu dövrdə metaldan xəncərlərin, gildən möhürlərin hazırlanması, arabalardan

istifadə, adi kasıb qəbirlərlə yanaşı, xüsusi qaydada qurulmuş, içərisinə qızıl və gümüşdən bəzək əşyalarının qoyulduğu qəbirlər, hakimiyyət simvolu hesab edilən daşdan düzəldilmiş zoomorf skipetrlər (əsa başlıqları) cəmiyyətdə sosial-iqtisadi bərabərsizliyin, iyerarxiyalı münasibətlərin ilk rüşeymlərinin yarandığını göstərir.

## 4. İbtidai icmanın dağılması və ilk iyerarxiyalı cəmiyyətlərin yaranması

E.ə. IV minilliyin ikinci yarısında başlayan Tunc dövrü qədim insanların həyatında inqilabi dəyişikliklərin baş verdiyi mühüm bir mərhələdir. Təsərrüfatın, sənətkarlıq sahələrinin sürətli inkişafı, geniş ərazilərin məskunlaşması, demoqrafik yüksəliş bu dövrdə sosial-iqtisadi həyatın bütün sahələrində əsaslı keyfiyyət dəyişikliklərinə təkan vermişdir. Əhalinin yaxın və uzaq ölkələrlə mədəni-iqtisadi əlaqələri daha da genişlənmişdi. Bu dövrdə insanlar misin tərkibinə süni şəkildə mərgümüş, nikel qatmağı öyrənmiş, ən əsası isə qalay qataraq daha keyfiyyətli metal – tunc əldə etmişdilər. Tunc dövründə iqtisadiyyatda baş vermiş inqilabi dəyişikliklər ibtidai icma cəmiyyətinin dağılmasını şərtləndirmişdi.

Təsərrüfatda və cəmiyyətdə kişinin rolunun güclənməsi ilə əlaqədar partiarxal münasibətlər tam bərqərar olmuşdur. İcmanın daxilində tədricən ailənin rolu artmış, istehsalın yüksəlməsi ilə əlaqədar olraq kollektiv icma təsərrüfatından ailənin xüsusi təsərrüfatına keçid imkanları yaranmışdı. Lakin ilk vaxtlarda xüsusi mülkiyyət qaydaları bütün icmanı əhatə etməmişdir. Belə ki, geniş torpaqlar üzərində ümumi mülkiyyət hüququ saxlanılır, iri həcmli işlər (suvarma sistemlərinin, böyük tikililərin inşa edilməsi, iri kurqanların qurulması, böyük təsərrüfatların işlənməsi) kollektiv şəkildə icra edilirdi. Qohumluq əlaqələri nəsli qan qohumluğu icmasından tədricən ərazi prinsiplərinə əsaslanan qonşuluq icması qaydalarına keçirdi. Qonşuluq icmasında uzun müddət nəsli və qonşuluq əlaqələri eyni zamanda mövcud olmuşdur. Tədricən xüsusi mülkiyyət formaları təşəkkül tapır, sosial təbəqələşmə güclənirdi. Bütün bunlar iyerarxiyalı cəmiyyətin və sonra dövlətin meydana çıxmasına zəmin yaradırdı.

E.ə. III minilliyin ikinci yarısına qədər davam etmiş İlk Tunc dövrü Kür-Araz arxeoloji mədəniyyəti (və yaxud tarixi-mədəni birliyi) ilə təmsil olunmuşdur. Bu dövrə

aid abidələr bütün bölgələrdə aşkar edilmişdir. Bir sıra yaşayış məskənləri müdafiə divarları ilə əhatə edilirdi. Urmiya hövzəsində Yanıqtəpə, Göytəpə, Qarabağda Qaraköpəktəpə yaşayış yerlərində belə divarların qalıqları aşkar edilmişdir. Bəzən (Yanıqtəpə) müdafiə divarlarının qalınlığı 5 m-ə çatırdı.

Yaşayış məskənləri çay vadilərində, münbit torpaqlarda salınır, hər biri bir neçə hektar ərazini əhatə edirdi. Əhali daşdan və çiy kərpiclərdən inşa edilmiş evlərdə yaşayırdılar. Tikililər dairəvi və düzbucaq planlı inşa edilir, divarları gillə suvanırdı. Evlər divarların dibində qurulmuş sobalarla qızdırılırdı. Yaşayış evləri ilə yanaşı yardımçı tikililər inşa edilir, belə tikililərdən ərzaq ehtiyatı və təsərrüfat heyvanlarının saxlanması üçün istifadə edilirdi. Taxıl ehtiyatı eyni zamanda divarları gillə suvanmış təsərrüfat quyularında saxlanılırdı. Hər bir yaşayış evi və ona aid yardımçı tikililər bir ailəyə məxsus idi. Dini ayinlərin icrası üçün ayrıca binalar inşa edilirdi. Yanıqtəpədə ikimərtəbəli evlərin qalıqları aşkar edilmişdir ki, bu da İlk tunc dövründə Urmiya hövzəsi əhalisinin mədəni inkişaf səviyyəsinin daha yüksək olduğunu göstərir.

İlk Tunc dövründə dəfnlər əsasən kurqanlarda və torpaq qəbirlərdə icra olunurdu. Belə qəbirlər Gəncə-Qazax, Mingəçevir, Qəbələ, Qarabağ, Naxçıvan, Lənkəran-Astara və s. ərazilərdə tədqiq edilmişdir. Kurqan örtükləri altında kütləvi dəfnlər icra edilmiş, torpaq qəbirlərdə isə bir və ya iki insan dəfn edilmişdir. Kütləvi dəfnlər eyni tayfa üzvlərinə məxsus olmuşdur. Tayfanın imtiyazlı üzvlərinin tək və ya qoşa dəfn edildiyi kurqan və ya torpaq qəbirlərə də rast gəlinir. Ağstafada Həsənsu torpaq qəbrində kişi və qadın dəfn edilmişdir. Kişinin ətrafına tunc silahlar – balta, xəncər, nizə və s. qoyulmuş, qadının skeleti üzərində isə qiymətli minerallardan, qızıldan və gümüşdən bəzək əşyaları aşkar edilmişdir. Burada dəfn edilmiş kişi və qadın tayfanın ən nüfuzlu şəxsləri, ehtimal ki, tayfa başçısı və onun xanımı olmuşdur. Bütün bunlar İlk Tunc dövründə iyerarxiyalı cəmiyyətdə sosial təbəqələşmə proseslərinin dərinləşdiyini göstərir[11].

Orta Tunc dövründə (e.ə. III minilliyin sonları-II minilliyin birinci yarısı) evlər dördkünc planda inşa edilirdi. Bu dövrə aid yaşayış məskənləri Urmiya hövzəsində (Göytəpə, Həftəvan), Naxçıvanda (I Kültəpənin 3-cü təbəqəsi, II Kültəpənin 2-ci təbəqəsi, Nəhəcir və s.), Qarabağda (Üzərliktəpə, Qaraköpəktəpə) daha geniş tədqiq

[11]Müseyibli N. Azərbaycanın dövlətçilik tarixi arxeoloji tədqiqatlarda // "Elm və həyat", № 2, 2016, № 2, s. 17-23.

edilmişdir. Orta Tunc dövründə Azərbaycanın əhalisi Ön Asiyanın mərkəzi vilayətlərinin sivilizasiya mərkəzləri ilə daha sıx əlaqələr qurur, iqtisadiyyat daha sürətlə inkişaf edirdi. Bütün bunlara bağlı olaraq Urmiya gölü və Araz çayı hövzələrində erkən şəhər tipli (protoşəhər) yaşayış məskənləri meydana çıxmışdır. Belə yaşayış məskənləri (Göytəpə, Həftəvan, Üzərliktəpə, Qaraköpəktəpə, II Kültəpə) eni bəzən 3 m-dən artıq olan müdafiə divarları ilə əhatə olunmuşdur. Görünür, qeyd edilən protoşəhər tipli belə məskənlər ilk siyasi qurumlar, şəhər-dövlətləri olmuşlar.

Orta Tunc dövründə vəfat etmiş insanları kurqanlarda, daş qutu və torpaq qəbirlərdə dəfn edirdilər. Ölülərin yanına müxtəlif məişət və bəzək əşyaları, silahlar qoyurdular. Çox zaman qəbir avadanlığının miqdarı və çeşidi dəfn edilənlərin sosial statusundan asılı olaraq dəyişirdi.

Son Tunc-İlk Dəmir dövründə (e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəlləri) bütün Azərbaycan ərazisində intensiv məskunlaşma prosesi güclənmiş, demoqrafik yüksəliş baş vermiş, yeni yaşayış məskənləri yaranmışdır. Bu dövrdə Naxçıvan bölgəsi Urmiya hövzəsi ilə birlikdə hələ Orta Tunc dövründən başlanmış boyalı qablar istehsalının kütləvi yayıldığı mədəni məkana daxil idi. Muğanda və Talış bölgələrində Talış-Muğan mədəniyyəti, digər bütün bölgələrdə isə Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdır. Bu dövrə aid yaşayış yerlərini müdafiə divarlarına malik və belə divarların olmadığı iki qrupa ayırmaq olar. Qədim Şərqin ən qüdrətli dövlətlərindən olan Urartunun bilavasitə qonşuluğunda yerləşən Naxçıvan ərazisində Sədərək qalası, Oğlanqala, Qızqala, Şahtaxtı, Çalxanqala, Qalacıq və s. şəhər-qalalar meydana çıxmışdı. Urartuluların şimal sərhəddində, Gədəbəy və Daşkəsənin dağlıq ərazilərində iri qayalarla qalaçalar ("təpəgöz tikililəri") inşa olunmuşdur.

Son Tunc-İlk Dəmir dövründə əhalinin təbəqələşməsini qəbir abidələrində daha yaxşı izləmək mümkündür. Kurqanlarda dəfn etmə adəti düzən və dağlıq ərazilərdə yayılmışdı. Daş qutu tipli qəbirlər daha çox dağlıq ərazilər üçün, torpaq və daş örtüklü qəbirlər isə düzən bölgələr üçün səciyyəvi olmuşdur. Qarabağın dağlıq və düzən zonalarında iri ölçülü kurqanlar qazılmışdır. Bunlar Xocalı, Borsunlu, Bəyimsarov (Tərtər), Sarıçoban (Ağdam), Qarabulaq (Füzuli) və s. kurqanlardır. Bu kurqanların bəzilərində, eyni zamanda Mingəçevir, Borsunlu (Goranboy), Şahtaxtı (Kəngərli),

Həsənli və s. kurqanlarda müxtəlif ev heyvanları da – öküz, dəvə, at dəfn edilmişdir. Bunlar təsərrüfatda həmin heyvanların əhəmiyyəti və heyvan kultu ilə bağlı olmuşdur. Naxçıvan və Talış-Muğan mədəniyyətlərinə aid kurqanlar və daş qutu qəbirlər tədqiq edilmişdir. Qəbirlərin quruluşu, dəfn zamanı oraya qoyulmuş avadanlığın zənginliyi vəfat etmiş insanların sosial statusu ilə birbaşa bağlı idi.

Tunc dövrünün bütün mərhələlərində Azərbaycan ərazisi Ön Asiya mədəniyyətlərinin tərkib hissəsi kimi inkişaf edirdi. Tunc dövründə başlıca təsərrüfat sahələri əkinçilik və maldarlıq idi. Tunc dövrünün əvvəllərindən başlayaraq toxa əkinçiliyindən xış əkinçiliyinə keçilsə də toxalardan sonrakı əsrlərdə, uzun müddət, Son Tunc-İlk Dəmir dövrünə qədər istifadə edilmişdir. Maldarlığın sürətli inkişafı, xırda buynuzlu heyvanların intensiv artımı yaylaq maldarlığının meydana çıxmasına və bununla bağlı olaraq yüksək dağlıq ərazilərin geniş məskunlaşmasına şərait yaratmışdır. Yüksək dağlıq zonalarda – Gəmiqayada (Ordubad) və Kəlbəcərdə qayaüstü təsvirlərin yaranması da məhz yaylaq maldarlığının nəticəsidir. Tədricən ovçuluğun rolu azalmış və maldarlığın yardımçı sahəsinə çevrilmişdir. Tunc dövrünün sonlarına doğru heyvandarlıq daha sürətlə inkişaf edərək demək olar ki, əsas təsərrüfat sahəsinə çevrilmişdi. Maldarlığın, sənətkarlığın sürətli inkişafı daha çox izafi məhsulun yaranmasına, xüsusi mülkiyyətin formalaşmasına şərait yaratmış və cəmiyyətin təbəqələşməsini, siniflərə bölünməsini sürətləndirmişdir.

Dulusçuluq, daşişləmə, toxuculuq və s. sənət sahələri ilə yanaşı metallurgiya yüksək tərəqqiyə çatmışdır. Qəbilələr, tayfalar arasında silahlı toqquşmalar yeni növ metal silahların düzəldilməsi zərurətini yaratmışdı. İlk Tunc dövründə artıq metalişləmə müstəqil sənətkarlıq sahəsi kimi təşəkkül tapmışdı. Bu dövrdə mis əsaslı metaldan xəncər, balta istehsalı genişlənmiş, nizə və ox ucluqları, Orta Tunc dövründən isə qılıncların istehsalına başlamışdılar. Öküzlərin və sonrakı dövrlərdə atların qoşulduğu arabalardan geniş istifadə edirdilər. Tunc dövrünün sonlarında isə tuncdan silah istehsalı kütləvi hal almış, artıq atların qoşulduğu döyüş arabaları meydana çıxmışdır. Bütün bunlar Tunc dövrünün ilk mərhələlərindən başlayaraq qədim Azərbaycan ərazilərində ibtidai icmanın dağılmasının sürətləndiyini, iri tayfa ittifaqlarının, Tunc dövrünün orta və son mərhələlərində isə ilk siyasi birliklərin yarandığını göstərir.